# Azərbaycanda sosial siyasət həmişə prioritet olaraq qalacaq

***Dövlətimizin başçısı bildirib ki, Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcək***

**Azərbaycan son illər sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoyub. 2004-cü ildən başlayaraq müstəqil respublikamız dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətli inkişaf edən ölkə hesab olunur. Məsələn, Dünya İqtisadi Forumunun 2015-ci ildə dərc etdiyi “Qlobal rəqabətədavamlılıq hesabatı”nda Azərbaycan dünya ölkələri arasında 40-cı yeri tutmaqla MDB-də ən rəqabətədavamlı iqtisadiyyata malik olduğunu sübut etmişdir.**

Statistikaya nəzər salaq. On iki il ərzində ölkənin ümumi daxili məhsulu 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, valyuta ehtiyatları isə 28 dəfəyə qədər artıb. Həmin müddətdə respublika üzrə orta aylıq əməkhaqqı 5,7 dəfə, orta aylıq pensiya 9,2 dəfə yüksəlib. Əhalinin gəlirləri 7 dəfə, adambaşına düşən gəlirlər isə 6 dəfə artıb. Ümumilikdə, 1 milyon 500 minə yaxın iş yeri açılıb ki, bunun da 1 milyonu daimi iş yerləridir. İşsizliyin səviyyəsi 5 faizə, yoxsulluğun səviyyəsi 49 faizdən 5 faizə enib. Göstərilən müddətdə bir çox sosial layihələr reallaşdırılıb. Bu sırada 3 min məktəb, 600-ə yaxın xəstəxana, 41 olimpiya-idman kompleksi, 34 gənclər evinin tikintisini, məcburi köçkünlər üçün 89 qəsəbənin salınmasını göstərmək olar. Həyata keçirilən sosialyönümlü siyasət hər bir vətəndaşın firavanlığına yönəlib.

Müstəqil Azərbaycanın son 12 ildə əldə etdiyi makroiqtisadi uğurlar ilk növbədə sistemli və ardıcıl şəkildə gerçəkləşdirilən islahatların nəticəsidir. Həmçinin bu müddət ölkə əhalisinin sosial müdafiəsi baxımından da zəngin olmuşdur. 2004-cü ildən etibarən pensiyalar və təqaüdlər, eyni zamanda sosial təbəqəni əhatə edən və dövlət büdcəsindən maliyyələşən işçilərin maaşları artırılıb.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən sosial siyasətin hədəfi iqtisadi inkişafın nəticələrini, əhalinin rifah halını yüksəltməyə yönəltməkdir. Bu prinsip ildən-ilə daha geniş şəkildə davam etdirilir. Qeyd edək ki, son illər dünyada hökm sürən qlobal maliyyə böhranı bir çox ölkələrdə sosial problemləri kəskinləşdirdiyi halda, bu proses Azərbaycandan yan keçdi. Həmin dövrdə bir çox inkişaf etmiş Avropa ölkələrində maaşlar və pensiyalar azaldı. Ölkəmiz isə belə halların müşahidə olunmadığı bir neçə dövlət sırasında yer tutdu. Çünki böhrana baxmayaraq, ölkəmizdə sosial layihələr və iqtisadi islahatlar daha sürətlə davam etdirilir. Bu isə 2016-cı ilin birinci rübündə də özünü göstərdi. Nazirlər Kabinetinin cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı geniş nitqində dövlətimizin başçısı bu məsələyə münasibət bildirərək demişdir: “Sosial siyasət həmişə prioritet olmuşdur və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar”.

Azərbaycanda çox güclü siyasət aparılır ki, iqtisadi islahatlar həyata keçirilərkən insanlar bundan əziyyət çəkməsinlər. Məhz insanların rifah halının yaxşılaşdırılması istiqamətində həm 2015-ci ildə, həm də 2016-cı ilin əvvəlində bir sıra mühüm addımlar atılmışdır. Bu baxımdan 2016-cı ilin dövlət büdcəsində sosial sahənin prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən siyasətin əsas məqsədinin xalqın rifahının yaxşılaşdırılması, ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi olduğunu bir daha təsdiqləyir.



Qeyd edək ki, yeni iş yerlərinin yaradılması işsizliyin səviyyəsinin aşağı salınması ilə yanaşı, həm də əhalinin rifah halının yaxşılaşmasında mühüm rol oynayır.

2016-cı ilin birinci rübündə 37 min yeni iş yeri yaradılmışdır. Onlardan 31 mini daimi iş yeridir. Bu da danılmaz bir faktdır ki, qlobal böhranla bağlı həm də iş yerləri bağlanır. Bu göstərici birinci rübdə 13 mindir. Müqayisə edəndə görürük ki, açılan iş yerləri bağlanandan 2 dəfə çoxdur.

Bildiyimiz kimi, dünyanı bürüyən maliyyə və iqtisadi böhran hələ başa çatmayıb, davam edir. Azərbaycan da dünya iqtisadiyyatının bir parçasıdır. Buna baxmayaraq, bu böhrandan ən az itkilərlə çıxan ölkələrdən biridir. Məsələn, neftin qiymətinin ötən ildən başlayaraq 3-4 dəfə aşağı düşməsinə baxmayaraq, 2016-cı ilin fevral ayının 1-dən ölkəmizdə maaşlar və pensiyalar 10 faiz artırılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə imzalanan çoxsaylı fərman və sərəncamlar yeni iqtisadi islahatlar mərhələsinə daxil olan ölkəmizdə, eyni zamanda sosial siyasət kursunun da daim gücləndiyini təsdiq edir. Dövlət başçısı tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə cari ilin əvvəlində 23 fərman və sərəncamın imzalanması respublikada sosial rifah halının yüksəldilməsinin Azərbaycan Prezidentinin sosial-iqtisadi siyasətində mühüm yer tutduğunu bir daha nümayiş etdirir.

Ekspertlər əvvəlki illərdə olduğu kimi, 2016-cı ilin büdcəsini də sosialyönümlü büdcə adlandırırlar. Bildirilir ki, dövlət büdcəsinin gəlirlərinin 46,5 faizini qeyri-neft sektoru təşkil edir. Ümumilikdə büdcənin 36 faizdən çoxu sosial məqsədlərə yönəlib. Bu da onu göstərir ki, sosial məqsədlərə ayrılan vəsait büdcənin azalmasına nisbətdə çoxalıb.

Eyni zamanda 2014-cü ildə qeyri-neft sektorunun gəlirlərinin dövlət büdcəsində payı 34 faiz idisə, 2016-cı ildə bu 46 faizdən çox proqnozlaşdırılıb. Həmçinin, qeyri-neft sektorundan büdcəyə daxilolmaların xüsusi çəkisi 2015-ci ilin proqnoz göstəricilərinə görə 11,8 faiz, 2014-cü ilin faktiki göstəricilərinə görə isə 12,5 faiz çoxdur. Bütün bölmələr üzrə sosial məqsədlərə ayırmalar azalmayıb, həmçinin ünvanlı sosial yardım və sosial ipotekaya ayrılan vəsait də bura daxildir. Bu ilin büdcəsində 2015-ci illə müqayisədə elm, təhsil, idman, sosial təminat, mədəniyyət tədbirlərinə 2 faizdən çox artım nəzərdə tutulub.

2016-cı ildə də heç bir ixtisar olmayacağını, bütün sosial proqramların icra ediləcəyini bəyan edən Prezident İlham Əliyev demişdir: “Bu ilin planları ilə bağlı demək istəyirəm ki, bütün sosial proqramlar tam icra ediləcək. Bildiyimiz kimi, maaşlar, pensiyalar və sosial müavinətlər qaldırıldı. Sosial müdafiə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Azərbaycan bazar iqtisadiyyatına sadiqdir. Bazar iqtisadiyyatı Azərbaycanda uğurla inkişaf edir. Ancaq islahatlar aparılarkən biz hər zaman sosial məsələləri yadda saxlamalıyıq. Unutmamalıyıq ki, biz xalq üçün çalışırıq. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərini biz həll etməliyik. Ona görə, bizim bütün səylərimiz, o cümlədən iqtisadi inkişaf bu məqsədə qulluq etməlidir. Ona görə, Azərbaycanda güclü sosial siyasət aparılır, aparılacaq və imkan daxilində bütün sosial proqramlar daha da geniş şəkildə icra ediləcək”.

**Ramiz YUSİFLİ,**
**“Respublika”.**